**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ PREZİDENTİ**

# SƏRƏNCAM

№ 63

Bakı şəhəri 05 fevral 2019-cu il

“Gənc qadınlar elmdə” müsabiqəsinin
keçirilməsi haqqında

Azərbaycanda qadınlar ölkə tarixinin bütün dövrlərində xalqın taleyüklü məsələlərinin həll edilməsinə öz töhfələrini vermişlər. Dövlət müstəqilliyimizin bərpasından sonra ötən illər ərzində Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmiş, ölkəmizin sosial-iqtisadi, intellektual-mədəni potensialının artırılmasında mühüm rol oynamışdır.

Hazırda AMEA-da çalışan qadınların 154-ü elmlər doktoru, 1044-ü fəlsəfə doktorudur. AMEA-nın həqiqi üzvlərindən 8-i, müxbir üzvlərindən isə 12-si qadındır. AMEA-nın qadın alimləri elmin müxtəlif sahələrində apardıqları tədqiqatlarla, əldə etdikləri mühüm nəticələrlə elmin inkişafına öz layiqli töhfələrini verirlər.

Bu gün AMEA-nın doktoranturasında, dissertanturasında və magistraturasında təhsil alanların əksəriyyəti gənc qadınlardır. Onlar elmdə və təhsildə yüksək göstəricilər göstərməklə elmin qarşısında duran aktual məsələləri həll etməyə qadir bacarıqlı kadrlar kimi yetişirlər.

Qeyd olunanları nəzərə alaraq, aktual və müasir elmi problemlərin Azərbaycan üçün prioritet olan istiqamətlərində elmi tədqiqatlar aparan gənc qadınların elmi fəaliyyətini stimullaşdırmaq və onların elmin inkişafında rolunu daha da artırmaq məqsədilə:

1. AMEA-nın gənc qadın alimləri üçün “Gənc qadınlar elmdə” müsabiqəsi elan edilsin.
2. “Gənc qadınlar elmdə” müsabiqəsinin əsasnaməsi təsdiq edilsin (əlavə olunur).
3. AMEA-nın həqiqi və müxbir üzvləri, habelə AMEA-nın elmi müəssisələrinin elmi şuraları tərəfindən irəli sürülən, yaşı 35-dək olan AMEA-nın qadın alimləri müsabiqədə iştirak edə bilərlər.
4. AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil baş idarəsinə (AMEA-nın müxbir üzvü Əminağa Sadıqov) tapşırılsın ki, müsabiqənin elan edilməsi və keçirilməsi ilə bağlı təşkilati məsələlər həll edilsin.
5. Müsabiqənin nəticələri “27 mart – Elm günü” ərəfəsində elan edilsin.
6. Sərəncamın icrasına nəzarət AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
RƏYASƏT HEYƏTİ
PROTOKOL
ŞÖBƏSİ
APARAT